# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların toplanması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədova Gülnar Cəfər qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/13/5-M-13**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Hesabat dövründə layihənin ilk mərhələsində beynəlxalq metodologiyalar əsasında müvafiq proqram təminatlı platformanın yaradılmasına imkan verir. İİMP iqtisadi fəallıqla bağlı iqtisadi indikatorların hesablanmasında istifadə olunan məlumatların müxtəlif dövlət və özəl qurumlardan alınmaqla onlayn rejimdə özündə cəmləşdirəcək, eyni zamanda məlumatların maraqlı tərəflərin istifadəsi üçün əlyetərli olması imkanı yaradılacaqdır. Belə ki, yaradılacaq platforma iqtisadi indikatorların hesablanmasında istifadə edilən böyük həcmdə iqtisadi göstəriciləri özünə daxil etdiyindən, müəyyən iqtisadi təhlil və proqnozlaşdırmaların aparılması baxımından da faydalı olacaqdır. Eyni zamanda, platformadan istifadə etməklə aparılan elmi tədqiqatlar daha real nəticələrə gəlinməsinə səbəb ola bilər. Platforma toplanmış göstəricilər əsasında iqtisadi fəallığa dair iqtisadi indikatorların hesablanması və onların daha yaxşı anlaşılması baxımından "Business İntelligence" alətləri vasitəsilə qrafik şəkildə vizuallaşdırmağa imkan verəcəkdir. Həmçinin, yaradılmış *İİMP* dövlət qurumları, biznes subyektləri və digər maraqlı tərəflər üçün əhəmiyyətli məlumat mənbəyi rolunu oynamaqla onlara iqtisadi qərar qəbulu prosesində faydalı ola bilər. |

Statistik məlumatların beynəlxalq statistika ilə müqayisəsinin mümkünlüyünü, statistik məlumatların aşkarlığını təmin edən vahid informasiya məkanı yaratmaq üçün statistik məlumatların istehsal üsullarının beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi zəruridir. Müasir statistika sisteminin qurulması üçün metodoloji və texnoloji sahədə islahatlar aparılmalıdır. Ölkələrdə demokratikləşmə ayrı-ayrı istehlakçılar tərəfindən statistik məlumatlara tələbatın artmasına, eyni zamanda onun keyfiyyətinə də tələbatın dəyişməsinə səbəb olmuşdur. Müasir dövrdə statistik məlumat istifadəçilərinin metaməlumatların elektron bazasına və digər elektron resurslara girişi, bu resurslarla işləmək imkanlarının onlara təqdim edilməsini tələb edir. Bazar iqtisadiyyatının tələb və təklif prinsiplərinə müvafiq olaraq, məlumatların metodoloji və keyfiyyət baxımından istifadəçilərin tələbatına uyğun şəkildə hazırlanması, statistik məlumatların keyfiyyətinin yüksəldilməsi üçün standartların hazırlanması vacib məsələrdən biridir. Göstəricilər və indikatorlar ticarətin iqtisadi və sosial inkişafl, iqtisadi əlaqələrin səmərəliliyi, qeyri-neft sektorunun inkişafı, müəssisənin faktiki iqtisadi və maliyyə səmərəliliyinin göstəricilərini artırmışdır.

Azərbaycanda iqtisadi inkişaf və iqtisadi fəallığa dair göstəricilər sisteminin toplanması və sistemləşdirilməsinə dair mövcud fəaliyyətin tədqiqi, həmçinin iqtisadi göstəricilərin toplanması və sistemləşdirilməsi ilə məşğul olan müxtəlif dövlət qurumlarının fəaliyyətinin təhlili aparılmışdır.Layihənin icrasının nəticəsi olaraq yaradılacaq İİMP real iqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların lazımi statistik göstəricilərin və sorğu məlumatlarının vahid patformada sistemləşdirilməsinə imkan yaradacaqdır. Platformanın qurulması məlumatların platforma üzərindən toplanması və iqtisadi fəallığın operativ şəkildə qiymətləndirilməsində əhəmiyyətli ola bilər. Platforma iqtisadi və sosial təhlillərin aparılması, proqnozların işlənib hazırlanması, investisiya və siyasət qərarlarının verilməsi kimi sahələrdə faydalı vasitə olacaqdır.

Rəsmi statistikadan fərqli olaraq, iqtisadi fəallığı xarakterizə edən indikatorların hesablanması zamanı əvvəlki dövrün məlumatlarına istinadən hazırlanmış trendlərə əsaslanan göstəricilər nəzərdən keçirilib. Son zamanlar statistik informasiyanın aşkarlığını təmin edən informasiya məkanı yaratmaq zərurəti yaranmışdır.Yeni informasiya texnologiyalarının, proqram-texnoloji vasitələrin və telekommunikasiya sistemlərinin

tətbiqi informasiyanın bilavasitə istehlakçıların istifadəsi üçün asanlıqla başa düşülən və əlverişli formada alınmasını təmin edir. Ölkələrarası iqtisadi əlaqələrin genişlənməsi dünyada, regionlarda və ayrı-ayrı ölkələrdə baş verən sosial-iqtisadi hadisələrin düzgün qiymətləndirilməsi üçün vahid metodika ilə toplanmış etibarlı və düzgün informasiyanın əldə edilməsi müasir dövrdə statistika orqanlarının qarşısında duran ən mühüm vəzifədir.

Azərbaycanda iqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların mövcud beynəlxalq metodologiya əsasında müəyyən edilməsi və alternativ mənbələrdən toplanaraq, təhlili və mütəmadi izlənilməsi üçün iqtisadi indikatorların məlumat platforması (İİMP) yaradılmışdır.  Bunun üçün:

- Azərbaycanda iqtisadi fəallığın qiymətləndirilməsini tələb edən iqtisadi indikatorların müəyyən olunması;
-İqtisadi indikatorların hazırlanması üzrə mövcud beynəlxalq metodologiyaların və iqtisadi indikatorlarla bağlı agentlərin sorğularının keçirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi;

- Beynəlxalq metodologiyalar və təcrübə əsasında iqtisadi indikatorların ölkədə ilk dəfə olaraq toplanması və sistemləşdirilməsi;
- İqtisadi indikatorlar üzrə vahid elektron məlumat bazasının, yəni vahid platformanın qurulması nəzərdə tutulmuşdur.

Növbəti (II) mərhələdə rəsmi yerli və xarici statistik məlumatlar əsasında iqtisadi fəallığın pandemiya dövründə vəziyyəti araşdırılmışdır. Dövlət, xüsusilə, makroiqtisadi məqsədlərinə (iqtisadi tarazlığın təmin edilməsi, iqtisadi artım) nail olmaq üçün maliyyə resurslarından istifadə edir. Dövlət gəlirlərinin artırılması və büdcənin tarazlaşdırılması iqtisadi artımın əsas alətləridir və bu vəsaitlərin təmin edilməsi fiskal siyasətin əsas vəzifələrindən biridir. Təəssüflər olsun ki, 2020-ci ildən dünyanı əsarət altına alan qlobal COVID-19 pandemiyası nəticəsində təkcə Azərbaycan deyil, dünya iqtisadiyyatı da ziyan görmüşdür. Məlumdur ki, hər bir ölkənin iqtisadi inkişafına təsir edən xüsusi amillər mövcuddur. Həmin amillər ölkənin sahib olduğu potensiallar ilə xarakterizə olunur. Və bu potensiallar ölkə iqtisadiyyatını ayaqda saxlayaraq onun inkişafını təmin edir. Pandemiya sadalanan bütün potensiallara mənfi təsir göstərir. Beləcə, öz potensial imkanlarından faydalana bilməyən ölkə iqtisadi cəhətdən çöküşə məruz qalır. İşsizlik faizinin yüksəlməsi, tələb və təklif normalarının pozulması, istehsalın azalması və s. kimi meydana çıxan problemləri aradan qaldırmaq üçün dövlət maliyyə imkanlarını səfərbər etməli olur ki, bu da öz növbəsində digər acınacaqlı nəticələrə yol açır.

Qeyd etmək lazımdır ki, sadalanan mənfi hallar, sadəcə pandemiya kimi səbəblər zamanı meydana çıxmır. Bu tip problemlər iqtisadiyyatı neftdən asılı olan, eləcə də istehlakında idxal payı üstünlük təşkil edən ölkələr üçün həmişə gözlənilən haldır. Belə ki, dünya bazarında neftin qiymətinə təsir edəcək hər hansı bir amil meydana çıxarsa, bu ölkələr ciddi fəsadlar ilə qarşılaşmış olur. Bu tip ölkələr hər nə qədər güclənmiş olsalar da, iqtisadi cəhətdən istehsalçı ölkələrdən asılı halda olaraq, həmişə təsir altında qalırlar.

Azərbaycan Respublikası da neft hasil edən ölkələr cərgəsində olduğuna görə sadalanan problemlərdən yayına bilmək üçün daim islahatlar aparılmalı, tədbirlər görülməlidir. Ən önəmli məqam isə istehlak mallarını daxili istehsal əsasında təmin etməkdir. Sosial-iqtisadi inkişafda ən önəmli amilin aqrar sənaye olduğunu nəzərə aldıqda, ölkəmizdə aqrar məhsulların istehsalı üçün əlverişli imkanlar olduğunu qeyd edə bilərik. Düşmən tərəfindən işğal edilmiş ərazilərin də geri alınması bu imkanları daha da genişləndirmişdir.

COVID-19 pandemiyası 2020-ci ilin mart ayından bütün dünyada təhsildən turizmə kimi həyatın bütün sahələrində dərin və çoxölçülü böhran yaradıb[6]. Dünya bazarında tarazlığın pozulması, neftin gözlənilmədən dəyərdən düşməsi, bütün qarşılıqlı əlaqələrin məhdudlaşdırılması inkişaf səviyyəsindən asılı olmayaraq − inkişaf etmiş, inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş ölkələrin hər birində iqtisadi tənəzzülə yol açıb. Məcazi şəkildə ifadə etsək, virus təkcə insanları deyil, həm də ölkələrin iqtisadiyyatlarına da yoluxub. Beynəlxalq Valyuta Fondunun (BVF) təkcə 2020-ci il üçün qlobal inkişafda 3 faiz azalma olduğunu qeyd edir. Bu rəqəm əsl qlobal böhranın baş verdiyini təsdiqləyir. Problemin ciddiliyini dərk edən dünya dövlətləri çalınan həyəcan təbilinə reaksiya verib, bütün imkanları səfərbər edərək çıxış yolları axtarır. Həmçinin Beynəlxalq Valyuta Fondunun koronavirus böhranının həlli ilə bağlı fəaliyyət planında bildirilir ki, səhiyyə təminatçıları, mərkəzi banklar, maliyyə, tənzimləyici və nəzarət orqanları tərəfindən vaxtında və qətiyyətli qərarlar pandemiyanın iqtisadi təsirini minimuma endirməyə əhəmiyyətli dərəcədə kömək edə bilər. Bu kontekstdə virusun iqtisadi təsirini yumşaltmaq üçün mərkəzi banklar tələb və inamı artırmalı, maliyyə vəziyyətini yüngülləşdirmək üçün real iqtisadiyyata kredit verilməsini dəstəkləməli, likvidliyi artırmalı, əhaliyə, eləcə də şirkətlərə sürətli maliyyə dəstəyi göstərməlidir. Pandemiyanın təsirinə məruz qalan maliyyə sabitliyinin qorunması, tənzimləyici və nəzarət tədbirləri, bank sisteminin davamlılığı ilə iqtisadi fəaliyyət arasında tarazlığın təmin edilməsi atılacaq addımlar sırasında olmalıdır.

Covid-19 pandemiyası ölkə iqtisadiyyatına mənfi təsir göstərsə də, həyata keçirilən kompleks tədbirlər, o cümlədən sahibkarlığın dəstəklənməsi və peyvənd prosesinin

sürətləndirilməsi iqtisadi fəallığın bərpasında müsbət rol oynayıb.

Nəticədə 2021-ci ilin müvafiq dövründə 2020-ci ilin yanvar-iyun ayları ilə müqayisədə ÜDM real ifadədə 2,1 faiz artaraq cari qiymətlərlə 39,9 milyard manat təşkil edib. Adambaşına düşən real ÜDM 1,6% artaraq 3987,6 manat və ya 2345,7 ABŞ dolları (keçən ilin müvafiq dövrünə nisbətən 2030,1 ABŞ dolları) təşkil etmişdir.

İlk vaxtlar pandemiyanın təsiri ilə neft-qaz qiymətlərinin kəskin enməsi ilə bir sıra problemlər əmələ gəlsə də, qiymətlərin qısa zamanda yüksəlməsi, ölkə iqtisadiyyatında xaosun yaranmasına imkan vermədi. Maliyyə itkisi yaranmadığına görə də dövlət tərəfindən iri miqyasda tədbirlərin həyata keçirilməsinə səbəb oldu. Nəticədə, pandemiya təsirinə məruz qalmış əhalinin sosial-iqtisadi vəziyyətini nəzarətdə saxlamaq mümkün oldu.

Pandemiya təsiri nəticəsində dünyada meydana çıxan inflyasiya Azərbaycanın da iqtisadiyyatına təsir göstərməkdədir. Bunun da əsas səbəblərindən biri istehlak olunan məhsulların əhəmiyyətli hissəsi idxal məhsullarının payına düşür. Bu da öz növbəsində ölkədaxili bazarda qiymət artımına gətirib çıxarır. Beləliklə də, əhalidə alıcılıq qabiliyyəti azalmağa doğru gedir. Nəticədə də, dövlət məcburən sosial xərcləri artırır ki, beləcə maliyyə itkisi yaranmış olur. Bu tip mənfi halların aradan qaldırılması üçün ən effektli addım daxili istehsalı yüksəltmək, bu sahədə investisiya yatırmaqdır.

Pandemiyanın fəsadları görülən tədbirlər nəticəsində 2021-ci ildən başlayaraq azalmağa doğru gedib və tədricən iqtisadi aktivlik də bərpa olunub. Bu aktivlik təkcə neft sahəsində deyil, digər sektorlarda da müşahidə olunur.

Araşdırma zamanı ilk formalaşan fikir budur ki, yer üzərində iqtisadi əlaqələr yarandığı gündən bu günə qədər öz dinamikliyini qoruyub saxlamışdır. İqtisadiyyatın və iqtisadi əlaqələrin mövcudluğu bütün dövlətlər üçün labüddür. Güclü dövlət güclü iqtisadiyyatdan qaynaqlanır. Güclü iqtisadiyyat isə əlaqə və əhatə genişliyi ilə təşəkkül tapır. Həmçinin bir ölkənin maliyyə imkanları da onun malik olduğu iqtisadiyyat əsasında tənzimlənir. Buna görə də dünya dövlətləri istəyərəkdən və ya istəməyərəkdən aralarındakı iqtisadi "zəncir"in qırılmamasına çalışırlar. Ümumiyyətlə, yarana biləcək bütün risklərdən yayına bilmək üçün ölkə iqtisadiyyatının dinamikliyini qorumaq labüddür. Mümkün qədər istehlakçı ölkədən istehsalçı ölkəyə keçmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişafı üçün yeni fürsətlər yaranmış olsun. Həmçinin ölkədə bütün sahələr inkişaf baxımından müasir standartlar çərçivəsində olduqda da, daha az təsirə məruz qalmaq mümükündür. Məsələn, pandemiya dövründə təhsil və biznes və digər xidmət sahələri onlayn xidmətlərə keçsə də, ölkə ərazisinin bütün məntəqələrində internet, eləcə də texnologiya olmadığına görə, hər kəs eyni səviyyədə təklif olunan xidmətlərdən yararlana bilməmişdir. Onu da qeyd etmək lazımdır ki, pandemiya və ya bu kimi digər hallar həm də ölkənin iqtisadi inkişafında çatışmayan tərəfləri müəyyən edir. Bu çatışmazlıqlar aradan qaldırılaraq daha güclü iqtisadiyyata, ən önəmlisi isə gələcəkdə baş verə biləcək bu tip hallara qarşı zəngin təcrübəyə malik olmaq mümkündür.

Azərbaycanda iqtisadi inkişaf və iqtisadi fəallığa dair göstəricilər sisteminin toplanması və sistemləşdirilməsinə dair mövcud fəaliyyətin tədqiqi, həmçinin iqtisadi göstəricilərin toplanması və sistemləşdirilməsi ilə məşğul olan müxtəlif dövlət qurumlarının fəaliyyətinin təhlili aparılmışdır. Statistik, ümumiləşdirmə, sistemləşdimə metodlarına üstünlük verilmişdir. Həmçinin, Azərbaycandakı statistik məlumatlar dünya ölkələrinin, xüsusuilə, Beynəlxalq Valyuta Fondunun hesabatları ilə müqayisə edilmişdir.

Layihənin üçüncü mərhələsində sosial-iqtisadi təhlükəsizliyin təmin edilməsi meyarları və onların xüsusiyyətləri ara.dırılmışdır. Sosial-iqtisadi təhlükəsizliyin meyarı baş verən vəziyyətin sosial-iqtisadi təhlükəsizliyinin mahiyyətini əks etdirən əsas proseslər baxımından qiymətləndirilmişdir.

Təhlükəsizliyin meyar qiymətləndirilməsinə aşağıdakıların qiymətləndirilməsi daxildir:

- resurs potensialı və birgə inkişaf ehtimalları;

- resurslardan, əməkdən istifadənin səmərəliliyinin dəyəri və onun inkişaf etmiş ölkələrdəki səviyyəyə nisbəti;
- iqtisadiyyatın rəqabət qabiliyyəti;
- ərazilərin və maliyyə-iqtisadi məkanın birliyi;
- suverenlik, müstəqillik və qabiliyyət
- xarici təhlükələrə qarşı mübarizə;
- sosial güc və sosial hadisələrin qarşısının alınması və həlli üçün meyarlar.

İqtisadi təhlükəsizlik dövlətin və onun regionlarının fəaliyyətində strateji istiqamətdir. Bu tendensiya iqtisadi qloballaşma prosesinin ictimai inkişafın dönməz təbii təkamül prosesi olması ilə gücləndirilir. Beynəlxalq mühitdə baş verən dəyişikliklər dünya birliyinin müxtəlif ölkələrində siyasi, iqtisadi və hərbi təhlükəsizliyin səviyyəsinin müqayisəli qiymətləndirilməsinə yeni yanaşmalar tələb edir. Aydındır ki, iqtisadi təhlükəsizliyin təmin edilməsinin səmərəli sistemi istənilən regionda mühüm məsələdir.

Sosial-iqtisadi sistemlərin iqtisadi təhlükəsizlik göstəriciləri sistemi regional sosial-iqtisadi maraqlar, təhdidlər və göstəricilərin hədləri regionun iqtisadiyyatının və sosial sferasının spesifikliyini, bütövlükdə bu sahədə müvafiq parametrləri nəzərə almalıdır. Regionda dörd proqnozu ehtiva edən ümumi sistem göstəriciləri: iqtisadi inkişaf, sosial inkişaf, innovativ inkişaf və ətraf mühitin inkişafı. Hazırlanmış sistemin təhlili yeni çağırışlar və təhdidlər, eləcə də bir sıra digər amillər nəzərə alınmaqla, konkret regionların xüsusiyyətlərini vurğulayan proqnozların sayını artırmaq və göstəricilərin strukturunun unifikasiyası yolu ilə onun təkmilləşdirilməsinin məqsədəuyğunluğunu göstərmişdir.

Göstərici seçərkən biz aşağıdakı mülahizələrdən istifadə etdik:

- mənbə məlumatının mövcudluğu;
- məlumatın vahid tezlik çıxışı - bir il;
- məhdud sayda göstəricilər.

Sosial-iqtisadi sistemlərin iqtisadi təhlükəsizlik göstəricilərinin bütün sisteminə iqtisadi təhlükəsizliyin müxtəlif aspektlərini təsvir edən on proqnoz daxildir. İqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək üçün hazırda beş qrup şəklində təmsil oluna bilən müxtəlif üsullardan istifadə edirlər:

1. Əsas makroiqtisadi göstəricilərin monitorinqi və onların həddlərlə müqayisəsi
2. Təhdidlər baxımından regionları sıralamaq üçün ekspert qiymətləndirmə metodu
3. Əsas makroiqtisadi göstəricilərdə iqtisadi artım tempinin və onların dəyişmə dinamikasının qiymətləndirilməsi.
4. Tətbiqi riyaziyyatın çoxvariantlı statistik təhlil kimi üsulları
5. Təhlükəsizliyə təhdidlərin kəmiyyət göstəriciləri vasitəsilə təsirini qiymətləndirərkən iqtisadi alətlərdən istifadə.

Əsas makroiqtisadi göstəricilərin müşahidə metodundan istifadə edərkən əsas problem hədlərlə müqayisə olunaraq iqtisadiyyatın vəziyyətini hərtərəfli qiymətləndirməyə, obyektiv təhlükə meyllərini ayırmağa imkan verəcək göstəricilərin seçilməsidir.

İqtisadiyyatın vəziyyətini iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən ən mühüm proseslər nöqteyi-nəzərindən qiymətləndirmək üçün iqtisadi təhlükəsizlik aşağıdakıların qiymətləndirilməsini əhatə edir:

- resurs potensialı və onun inkişafı

- resursdan istifadənin, kapitalın və əməyin səmərəliliyinin səviyyəsi və onun ən inkişaf etmiş ölkələrin səviyyəsinə uyğunluğu, habelə daxili və xarici təbiətə hansı təhlükələr minimuma endirilə bilər
- iqtisadiyyatın rəqabət qabiliyyəti
- ərazinin və iqtisadi məkanın bütövlüyü
- suverenlik, müstəqillik və təhlükələrlə üzləşmə imkanı
- sosial sabitlik və sosial münaqişələrin qarşısının alınması və həlli üçün şərait.

Regionda sosial-iqtisadi qeyri-sabitliyin potensial amillərinin hərtərəfli işıqlandırılması məqsədilə aşağıdakı vəziyyəti əks etdirən sosial-iqtisadi gərginliyin sintetik göstəriciləri hazırlanmışdır: işsizlik, cinayət, siyasi vəziyyət, beynəlxalq münasibətlər, ekologiya, istehlak bazarı kimi, qiymət. istehlak malları və ərzaq məhsulları indeksi, vətəndaşların gəlirləri, iqtisadiyyatın vəziyyəti, potensialın əlavə amillərinin mövcudluğu sosial-iqtisadi gərginliklər. İqtisadi təhlükəsizlik rejiminin xarakterik xüsusiyyətləri kimi təkrar istehsal şərtlərini nəzərə almaq lazımdır. Bu şərtlərdə sistem sərhəd rejiminin göstəriciləri qoyula bilər.

İqtisadiyyatın real sektorunun böhransız fəaliyyət göstərməsi istər-istəməz onun genişlənmiş təkrar istehsala istiqamətlənməsi deməkdir. İqtisadi təhlükəsizlik sisteminin qurulması üçün göstəricilərin ən mühüm xüsusiyyəti onların yalnız müəyyən şəraitdə həmişə mövcud olan qarşılıqlı əlaqəsi, təhlükə gücünün artması, müəyyən hüdudlardan kənara çıxması, ifrata çevrilməsi və aşkar olmasıdır.

Bu cür qarşılıqlı əlaqənin ədədi parametrləri haqqında məlumatların toplanması makroiqtisadi siyasət qərarlarının sosial-iqtisadi təsirini müəyyən etmək, iqtisadi təhlükəsizliyə müəyyən təhdidlərin əhəmiyyətini qiymətləndirmək üçün lazımdır. Regionlarda vəziyyətin qiymətləndirilməsi iki qrup göstəricidən istifadə etməklə həyata keçirilir: birinci qrup göstəricilərin yoxlanılmasından ibarətdir.

İqtisadi təhlükəsizliyin sosial-iqtisadi sisteminin obyektiv qiymətləndirilməsi əldə edilmiş göstərici qiymətlərinin həddlərlə müqayisəsi əsasında mümkündür.

Regional bölgələrdə iqtisadi təhlükəsizliyin performans göstəricilərinin ərazi rayonlaşdırma həddi səviyyələrinin əsası sosial-iqtisadi məkanını bir sıra fundamental təsnifat meyarlarına görə ayırmağa imkan verdi.

1. İqlim şəraiti. İqlim nə qədər sərt olarsa, iqtisadi təhlükəsizliyin bir sıra fəaliyyət göstəricilərinə, məsələn, regionların iqtisadiyyatına investisiya qoyuluşu və əsas fondların yenilənməsi baxımından bir o qədər sərt şərtlər qoyulur.

2. Ərazinin inkişaf dərəcəsi:
- sənaye və sosial sahələrin tarazlı inkişafı ilə uzun müddət becərilən ərazi
- inkişaf etməkdə olan sahələr
- inkişaf etməmiş ərazilər.

İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi dövlətə iqtisadi təhlükəsizliyini qorumaq funksiyasını səmərəli şəkildə həyata keçirməyə imkan verən prosedurlar və iqtisadi alətlər sistemi olmalıdır. Bu funksiyanın həyata keçirilməsi alqoritmi ilk növbədə iqtisadi sahədə milli maraqların rəsmiləşdirilməsini nəzərdə tutur.İqtisadi sistemin normal işləməsi üçün həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə iqtisadi təhlükəsizlik strategiyası lazımdır.

Dövlətin strateji maraqlarının sosial-iqtisadi təhlükəsizliyin təmin edilməsini 3 əsas istiqamətə ayırmaq olar:

| | |
|---|---|
| | - ÜDM artımının xarici bazar templərini üstələyən uzunmüddətli sabit maliyyə inkişafı;<br>- dövlət iqtisadiyyatının və onun təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin artırılması, əmtəə və pul bazarlarında innovasiyaların inkişafı;<br>- əhalinin rifahının və həyat səviyyəsinin yüksəldilməsi.<br>Sosial-iqtisadi təhlükəsizliyin daxili və xarici təhlükələrinin sınaqdan keçirilməsi göstərdi ki, təhlükələrin uzun müddət açıq və kəskin formada özünü büruzə verməmək üçün hər cür şansı var, bununla belə, müəyyən vəzifələrin həllinə diqqəti daha da gücləndirmək lazımdır.<br>Təhlükəsizliyin meyar qiymətləndirilməsinə aşağıdakıların qiymətləndirilməsi daxildir:<br>➢ resurs potensialı və birgə inkişaf ehtimalları; resurslardan, puldan və əməkdən istifadənin səmərəliliyinin dəyəri və onun inkişaf etmiş ölkələrdəki səviyyəyə nisbəti, habelə daxili və xarici xassələrin təhlükələrinin minimuma endirilməsi səviyyəsi;<br>➢ iqtisadiyyatın rəqabət qabiliyyəti; ərazilərin və maliyyə-iqtisadi məkanın birliyi;<br>➢ suverenlik, müstəqillik və qabiliyyət xarici təhlükələrə qarşı mübarizə;<br>➢ sosial güc və sosial hadisələrin qarşısının alınması və həlli üçün meyarlar;<br>➢ həyat səviyyəsi və keyfiyyəti;<br>➢ inflyasiya dərəcələri;<br>➢ işsizlik dərəcəsi; maliyyə və iqtisadi artım;<br>➢ büdcə çatışmazlığı;<br>➢ dövlət borcu;<br>➢ qlobal iqtisadiyyata inteqrasiya;<br>➢ qızıl-valyuta ehtiyatlarının vəziyyəti;<br>➢ kölgə iqtisadiyyatının mövcudluğu<br>Sosial-iqtisadi təhlükəsizliyin təmin edilməsi meyarlar və xüsusiyyətlər sistemində həyata keçirilir. Sosial-iqtisadi təhlükəsizliyin meyarı baş verənlərin vəziyyətinin sosial-iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən əsas proseslər baxımından qiymətləndirilməsidir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | 100% |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | Layihənin yerinə yetirilməsi zamanı beynəlxalq metodologiyalar əsasında müvafiq proqram təminatlı platformanın yaradılması imkanları tədqiq edilmişdir. Belə ki, yaradılacaq platforma iqtisadi indikatorların hesablanmasında istifadə edilən böyük həcmdə iqtisadi göstəriciləri özünə daxil etdiyindən, müəyyən iqtisadi təhlil və proqnozlaşdırmaların aparılması baxımından da faydalı olmuşdur.<br>1. Yerli və xarici təcrübənin təhlili və ümumiləşdirilməsi əsasında sosial-iqtisadi, ekoloji indekslər və göstəricilərin uyğunlaşma və tətbiqi metodikası işlənilib;<br>2. iqtisadi inkişafı və ətraf mühitin vəziyyətini xarakterizə edən ümumiləşdirən məkan indekslərinin seçilmiş müxtəlif göstəricilər əsasında qurulması həyata keçirilib;<br>3. indekslərə və indikatorlara tətbiq edilən təsnifatların nəticələrinin etibarlılığını artırmağa imkan verən çoxvariantlıq prinsipləri reallaşdırılıb.<br>Regionun iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi.<br>İqtisadi sistemin normal işləməsi üçün həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə iqtisadi təhlükəsizlik strategiyası lazımdır. İqtisadi təhlükəsizliyin sosial-iqtisadi sisteminin inkişaf strategiyasının alqoritmi aşağıdakı ardıcıl addımlardan ibarətdir: |

| | |
|---|---|
| | 1. Regionda maraqların ifadə olunması<br>2. Regionun iqtisadi təhlükəsizliyinə təhdidlərin müəyyən edilməsi<br>3. İqtisadi təhlükəsizliyə təhdidlərin müxtəlif göstəricilər (sosiodemoqrafik, iqtisadi, ərzaq təhlükəsizliyi, investisiya, maliyyə, institusional transformasiyalar) kimi qiymətləndirilməsi.<br>4. Göstəricilərin həddlərlə müqayisəsi və sosial-iqtisadi sistemin vəziyyətinin müəyyən edilməsi (normal, böhrandan əvvəlki, böhranlı, kritik)<br>5. Regionun iqtisadi siyasətinin formalaşması<br>6. Tədbirlərin icrasına nəzarət<br>7. Ərazinin iqtisadi təhlükəsizliyini təmin etmək üçün tədbirlərin həyata keçirilməsi |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | Ahmadova G. /EVALUATION OF ECONOMIC ACTIVITY/ Sciences of Europe /No 110 (2023)/ ISSN 3162-2364/ DOI: 10.5281/zenodo.7618236<br>https://zenodo.org/record/7618236 |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Olmayıb |
| **6** | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Olmayıb |
| **7** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Olmayıb |
| **8** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Olmayıb |
| **9** | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Olmayıb |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | yoxdur |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının əməkdaşlarıyla İqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların araşdırılması |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | Olmayıb |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Olmayıb |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |

| | |
|---|---|
| | Olmayıb |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Olmayıb |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | Olmayıb |

**SİFARİŞÇİ:**

**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

___________________

*(imza)*

“ __” ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**

**Əhmədova Gülnar Cəfər qızı**

__________________

*(imza)*

“ __” ________ 20_-ci il

## AZƏRBAYCAN ELM FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **İqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların toplanması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədova Gülnar Cəfər qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/13/5-M-13**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

## Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | (burada doldurmalı)<br><br>1) planın yerinə yetirilmə dərəcəsini müəyyənləşdirmək və planlaşdırılan göstəricilərin etibarlılığını yoxlamaq üçün planlaşdırılmış və faktiki göstəricilərin müqayisəsi.<br>2) həqiqi göstəriciləri standartlarla müqayisə etmək, resurslara qənaət edən texnologiyaların tətbiqi xərclərinə və metodlarına nəzarət etməyə imkan verir.<br>3) iqtisadi proseslərin inkişaf tendensiyasını müəyyən etmək üçün faktiki göstəricilərin keçmiş illərin göstəriciləri ilə müqayisəsi<br>4) təhlil olunan müəssisənin göstəricilərinin elmin nailiyyəti və digər müəssisə və ya bölmələrin ən yaxşı təcrübəsi ilə müqayisəsi axtarış üçün lazım olan ehtiyatlar. |

| | |
|---|---|
| | 5) əldə edilmiş nəticələrin qiymətləndirilməsi və istifadə olunmamış ehtiyatların müəyyənləşdirilməsi üçün təhlil olunan iqtisadi göstəricilərinin rayon, zona, sahə üzrə orta göstəricilərlə müqayisəsi.<br>6) tədqiq olunan hadisələrin əlaqələrini öyrənmək üçün paralel və dinamik ardıcıllığın müqayisəsi. |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)*<br>Layihənin nəticələri əsas texniki-iqtisadi göstəricilərin təhlilinə yönəlmişdir:<br>a) müəssisənin təxmini göstəricilərinin oxşar fəaliyyətlə məşğul olan digər müəssisələrin müvafiq göstəriciləri ilə müqayisəsi;<br>b) müəssisənin müxtəlif göstəricilərinin öz aralarında müqayisəsi;<br>c) müxtəlif dövrlər üzrə müəssisənin oxşar göstəricilərinin müqayisəsi;<br>d) müəssisənin planlaşdırılmış və faktiki əldə edilmiş göstəricilərinin müqayisəsi.<br>Müxtəlif texniki-iqtisadi göstəriciləri müqayisə etməklə, müəssisənin mövcud istehsal-texniki aparatından (əsaslarından) istifadə dərəcəsi, məhsul buraxılışı ilə onun satışı (məhsulun satışının həcmi), əmək məhsuldarlığı və onun ödənilməsi arasında müəyyən edilmiş əlaqələr müəyyən edilir.<br>Layihənin mövzusu aktualdır, çünki bazar iqtisadiyyatı şəraitində müəssisənin vəzifələrindən biri onun maliyyə resurslarının formalaşması və istifadəsi prosesini əks etdirən göstəricilər toplusu ilə xarakterizə olunan fəaliyyətin təhlili və qiymətləndirilməsidir. Hərtərəfli təhlil idarəetmə qərarlarının qəbul edilməsi üçün əsasdır, bunun əsaslandırılması üçün mövcud və mümkün problemləri, maliyyə və istehsal risklərini müəyyən etmək və proqnozlaşdırmaq, qəbul edilmiş qərarların gəlir və risk səviyyəsinə təsirini müəyyən etmək lazımdır. Fəaliyyətin kompleks təhlili metoduna sahib olmaq müəssisə rəhbərlərinin peşəkar hazırlığının tərkib hissəsidir. Maliyyə təhlili şirkətin fəaliyyətinin müxtəlif aspektlərini xarakterizə edən bir sıra maliyyə göstəricilərinin hesablanması, şərhi və qiymətləndirilməsidir. Müəssisənin iqtisadi göstəricilərinin təhlili əsasında bir sıra nəticələr və tövsiyələr verilməlidir.<br>Beləliklə, maliyyə vəziyyətinin təhlilinin məqsədinə nail olunmuş hesab etmək olar. Bu, ilk növbədə, müəssisənin idarə edilməsində mühüm rol oynayan texniki-iqtisadi göstəricilərin (balans əsasında), əsas fondların, istehsalın və kadrların idarə edilməsinin təhlilidir. Təhlilin nəticələrinə görə, məsələn, xərclərin azaldılması və satış gəlirlərinin artırılması yolu ilə mənfəətin artırılması üçün ehtiyatlar müəyyən edilməlidir. |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)* |

Alınan nəticələr həm fundamental ,həm də tətbiqi sahələrdə istifadə oluna bilər.

| | |
|---|---|
| **SİFARİŞÇİ:** | **İCRAÇI:** |
| **Azərbaycan Elm Fondu** | |
| **Şöbə müdiri** | **Layihə rəhbəri** |
| **Quliyeva Mülayim Sahib qızı** | **Əhmədova Gülnar Cəfər qızı** |
| _______________ | ________________ |
| *(imza)* | *(imza)* |
| “ __” ________ 20_-ci il | “ __” ________ 20_ -ci il |

**AZƏRBAYCAN ELM FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **İqtisadi fəallığın qiymətləndirilməsində istifadə olunan iqtisadi indikatorların toplanması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədova Gülnar Cəfər qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/13/5-M-13**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Məqalələr<br><br>həmçinin xarici nəşrlərdə | Ahmadova G. /EVALUATION OF ECONOMIC ACTIVITY/ Sciences of Europe /No 110 (2023)/ ISSN 3162-2364/ DOI: 10.5281/zenodo.7618236 https://zenodo.org/record/7618236 | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri<br><br>həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:** **İCRAÇI:**

**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

___________________
*(imza)*
" __" _________ 20_-ci il

**Layihə rəhbəri**
**Əhmədova Gülnar Cəfər qızı**

__________________
*(imza)*
" __" _________ 20_-ci il